# GÜNDOĞAR



Qəzet 1931 - ci ildən çap edilir    NEFTÇALA RAYON QƏZETİ    30 AVQUST 2024 - cü il, № 8(68070)





***Ulu Öndər Heydər Əliyev: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”.***




***YADDAN ÇIXMAZ ANA DİLİM!***

## Azərbaycan-Özbəkistan əlaqələri uğurla davam edir

**23 avqust 2024-cü ildə Daşkənddə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında Prezident Şavkat Mirziyoyevin çıxışında qeyd etmişdir ki,** ikitərəfli münasibətlərin hazırkı səviyyəsinə qiymət verərkən vurğulamaq istəyirəm ki, birgə səylərlə çox böyük işlər görülüb. Amma görüləsi daha çox iş var, çünki biz prezidentlər artıq bir-birimizi və iş adamlarını, şirkətləri, nazirlikləri və idarələri rəsmi hissədə olarkən dediyimiz kimi, əzbərdən bilirik. Bu da onu göstərir ki, tez-tez görüşdüyümüzə görə real nəticələr əldə olunur. Növbəti ildə diplomatik münasibətlərin 30 illiyini qeyd edəcəyik. Biz bu yubileyə ciddi nəticələrlə gəlməliyik. Bununla bağlı əsas vəzifələr üzərində dayanacağam. Birincisi, intensiv siyasi təmaslar və bütün il ərzində gündəlikdəki məsələlər üzrə ahəngdar fəaliyyətin mübadiləsi üçün cədvəl hazırlamağı təklif edirəm. Bundan başqa, xarici işlər nazirliklərimiz qarşıdakı əlamətdar hadisə ilə əlaqədar tədbirlər proqramı hazırlayırlar. İkincisi, İlham Heydər oğlu, əgər Siz dəstəkləyirsinizsə, biz razılaşdıq ki, - mən artıq bunu məhdud tərkibdə görüşdə də dedim, - növbəti ili “Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili” elan edək və məhdud tərkibdəki görüşdə üzərində dayandığımız 20 prioritet istiqaməti əhatə edən kompleks proqram qəbul edək. Qarşıda əmtəə dövriyyəsinin həcmini dəfələrlə artırmaq və sənaye kooperasiyasını yeni fazaya keçirmək, o cümlədən üçüncü ölkələrdə layihələri reallaşdırmaq vəzifələri durur.

Görüşdə çıxış dən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu əlaqələrin vacibliyini, inkişafında olan yenilikləri ətraflı qeyd edərək bildirmişdir ki, “Ölkələrimiz arasında möhkəm münasibətlər artıq bütün sınaqlardan çıxıb və bu gün ən yüksək səviyyəyə çatıb. Siz də qeyd etdiyiniz



kimi bu müttəfiqlik münasibətləridir və bundan yüksəyi yoxdur. Biz buna nisbətən qısa zaman ərzində nail olduq, məhz hər iki tərəfdən siyasi iradə nümayiş etdirdik, həmçinin ölkələrimizi və xalqlarımızı maksimum yaxınlaşdırdıq. Əminəm ki, həm Özbəkistanda, həm də Azərbaycanda ictimaiyyət bizim qazandığımız nailiyyətləri diqqətlə izləyir və bizimlə birlikdə sevinir”...

## ÖLKƏLƏRİMİZ MÜTTƏFİQLƏR, DOSTLAR, YAXIN TƏRƏFDAŞLAR VƏ QONŞULAR KİMİ FƏALİYYƏT GÖSTƏRİR



19 avqust 2024-cü il tarixində Azərbaycanda səfərdə olan Prezident Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər. Ölkələrimiz arasında çoxtərəfli əməkdaşlığı dəyərləndirən Prezident İlham Əliyev bildirmişdir ki, “Bu gün qəbul edilən sənədlər, ilk növbədə, prezidentlərin Birgə Bəyanatı daxil olmaqla, münasibətlərimizin dostluq və müttəfiqlik xarakterini bir daha təsdiqləyir... Biz, eyni zamanda, məhdud formatda keçirilən görüşdə regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Ötən ilin sentyabrından sonra regionda tamamilə yeni şərait yaranıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır.

Biz dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları, “Şimal-Cənub” layihəsinin həyata keçirilməsi ilə bağlı məsələləri ətraflı müzakirə etdik.

Deməliyəm ki, Azərbaycanın ərazisində “Şimal-Cənub” dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox – 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır. Ümidvaram ki, hazırkı şəraitdə Rusiya və Azərbaycan, həmçinin bu dəhlizin digər iştirakçıları birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər.

Bir daha deməliyəm ki, biz bu il həmin dəmir yolu sahəsinin tələb edilən ötürücülük qabiliyyətinə malik olması üçün modernləşdirilməsi məqsədilə təxminən 120 milyon dollar ekvivalentində vəsait nəzərdə tutmuşuq.

Rusiya və Azərbaycanın müxtəlif şəhərləri arasında hər gün 20 reys həyata keçirilir. Deməliyəm ki, hətta Sovet İttifaqı dövründə bu qədər qarşılıqlı reyslər olmayıb. Eyni zamanda, onlar Azərbaycan və Rusiya daşıyıcıları arasında bərabər bölünüb. Bu, məhz ondan xəbər verir ki, insanlar arasında təmaslar mütəmadi xarakter daşıyır. Bu gün, həmçinin ölkələrimizin vətəndaşları arasında qarşılıqlı səyahətlərin artdığını qeyd etdik.

Energetika sferasında həm neft-qaz sektorunda, həm də elektrik enerjisi sahəsində vəziyyəti geniş təhlil etdik. Biz bu istiqamətdə fəal işləyirik və əminəm ki, gələcəkdə də fəaliyyətimizi əlaqələndirəcəyik.

Həmçinin hər iki tərəfi narahat edən məsələlər, məhz Xəzərdə ekoloji vəziyyət, onun fəlakətli dayazlaşması üzrə fikir mübadiləsi apardıq. Danışıqlar apardığımız otağın pəncərəsindən Vladimir Vladimiroviçə hələ iki il əvvəl suyun altında olan, bu gün isə artıq bir metr yuxarıya çıxan qayaları göstərdim. Biz bunu Abşeron yarımadasının bütün sahili boyu, həm də Azərbaycanın bütün sahilyanı ərazilərində müşahidə edirik. Mümkün ekoloji fəlakətin qarşısını almaq üçün biz birgə səylərlə vəziyyəti təhlil etmək və həm ikitərəfli, həm də beştərəfli formatda həll yollarını müəyyənləşdirmək barədə razılığa gəldik. Yəni, bu ekoloji fəlakətin meydana çıxmasını artıq açıq-aşkar görürük.

Mən Azərbaycanın COP29 iqlim konfransında ev sahibi qismində namizədliyini dəstəklədiyinə görə Vladimir Vladimiroviçə və Rusiya tərəfinə təşəkkürümü bildirdim. Rusiyanın dəstəyi müstəsna dərəcədə mühümdür və biz hazırda ikitərəfli formatda da bu iqlim konfransına hazırlıqla bağlı məsələlər üzərində işləyirik”.

Prezident Vladimir Putin çıxışında qeyd etmişdir ki, “Rusiya Azərbaycanla çoxplanlı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Bu münasibətlərin əsasını bərabərlik, bir-birinin maraqlarına nəzərə almaq və əlbəttə, əsrlər boyu xalqlarımızı birləşdirən sıx insani və mədəni bağlar təşkil edir.Qəbul edilən Birgə Bəyanatda ikitərəfli əlaqələrin bütün kompleksi üzrə gələcək dinamik inkişafın yeni genişmiqyaslı vəzifələri qarşıya qoyuldu. Bu gün imzalanan sənədlər də onların həllinə kömək edəcək...

...Rusiya və Azərbaycan çoxtərəfli platformalar daxil olmaqla, həmçinin BMT və Müstəqil Dövlətlər Birliyində öz səylərini sıx əlaqələndirirlər”...

# MEHRİBAN XANIM ƏLİYEVA – 60

**Azərbaycan Respublikasının Birinci vitse - prezidenti (2017-ci ildən), Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO -nun xoşməramlı səfiri, UNESCO-**nun xoşməramlı səfiri (2004–2022) Mehriban Arif qızı Əliyeva 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur.1981-ci ildə Bakı şəhər 23 №-li orta məktəbi qızıl medalla bitirərək Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1988-1990-cı illərdə İ.M.Seçenov adına Birinci Moskva Tibb İnstitutunda “Göz xəstəlikləri” ixtisası üzrə kliniki ordinatura keçmişdir.

1990–1995-ci illərdə Moskvada Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu təsis etmişdir və hazırda onun rəhbəridir. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliği məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) nəşr olunan “Azərbaycan – İrs” jurnalını təsis etmişdir. 2002-ci ildə oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. 2004-cü ildən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və milli dövlətçilik ideyalarının təbliği məqsədi ilə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir.

Mehriban xanım Əliyeva 2004-cü ilin avqustunda Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür. 2004-cü ilin dekabrında Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir. 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən isə Partiyanın sədr müavinidir. Mehriban Əliyeva 2005-ci ildə "Evtanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya işi müdafiə edib və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb. 2005, 2010 və 2015-ci illərdə üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir.

Humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, İslam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə 2006-cı ilin noyabrında ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür. 2016-cı ilin iyununda Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü seçilmişdir. 2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilmişdir. Bununla əlaqədar 2017-ci il martın 6-da Azərbaycan Respublikası Milli Məclisinin deputatı səlahiyyətlərinə xitam verilmişdir. Ailəlidir, iki qızı, bir oğlu və beş nəvəsi vardır.

**Mehriban xanım Əliyeva dəyərli xidmətinə görə öz ölkəmizdə və dünyanın bir çox dövlət rəhbərləri tərəfindən mükafatlandırılmışdır. Onun əməyinə, xidmətinə verilən yüksək dəyər hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Mehriban xanım Əliyeva “Heydər Əliyev” ordeni (Azərbaycan Respublikası), “Şərəf Legionu” ordeni (Fransa Respublikası), “Dostluq” ordeni (Rusiya Federasiyası), “Xidmətlərə görə” Böyük Xaç Kavaleri ordeni (İtaliya Respublikası), “Xidmətlərə görə” Böyük Komandor Xaçı ordeni (Polşa Respublikası), “Hilal-e Pakistan” ordeni (Pakistan İslam Respublikası), “Sreten” ordeni (Serbiya Respublikası), “Macarıstanın Xidmətlərə görə Komandor Xaçı” ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni (Rus Pravoslav Kilsəsi), “Həştərxan vilayəti qarşısında xidmətlərinə görə” ordeni (Rusiya Federasiyası), UNESCO-nun “Qızıl Motsart” medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun Qızıl medalı və “Prix de la Fondation” mükafatı, Avropa Olimpiya Komitələrinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin “Xüsusi xidmətlərə görə” medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomu;**



**Heydər Əliyev Mükafatı, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, “Qızıl ürək” beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının “Olympic Excellence” xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı;**

**Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru.**

Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunda fəaliyyəti Azərbaycan tarixində xüsusilə əhəmiyyətli səhifələrdəndir.

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. Fond ulu öndər Heydər Əliyevin xatirəsinə 2004-cü il 10 may tarixində təsis olunmuşdur. Xalqın milli-mənəvi dəyərlərini, tarixi kimliyini, milli özünəməxsusluğunu qoruyub saxlayan, həmçinin gələcək nəsillərə də ötürməyi bacaran Ulu öndər Heydər Əliyev daim elmin, təhsilin, milli-mənəvi dəyərlərin böyük hamisi və qoruyucusu olmuşdur. Heydər Əliyev Fondu məqsədyönlü fəaliyyəti ilə hər zaman bu amala sadiqliyini nümayiş etdirmişdir. Əldə olunan çoxşaxəli uğurlarımızda Fondun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın rolu danılmazdır.

Fondun fəaliyyətində "Qarabağ xanəndələri" adlı musiqi albomunun, "Qarabağ həqiqətləri" bukletlər toplusunun, "Müharibə və tarixi mədəniyyət abidələrimiz", Parisdə ingilis dilində "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması", "Muğam haqqında əlyazmalar toplusu", "Qarabağ xanəndələri" musiqi albomunun və s. nəşri Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz guşələrindən biri kimi dünya ictimaiyyətinə çatdırılmasında mühüm vasitə olmuşdur. Fondun dəstəyi ilə Xocalı soyqırımı hər il dünyanın 100-dən artıq nöqtəsində qeyd olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməktaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən fəaliyyətə başlamış "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası erməni cinayətlərinin dünya miqyasında ifşası üçün əlverişli mühit formalaşdırmışdır.

Uşaqlara və ahıllara göstərilən nəvaziş, inşa olunan çoxsaylı məktəblər, səhiyyə ocaqları, musiqi liseyləri, uşaq evləri, talasemiya və diabetdən əziyyət çəkən uşaqlara xüsusi qayğı Fondun reallaşdırdığı fəaliyyətin ayrılmaz qoludur. Uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək Fondun qarşıya qoyduğu əsas məqsədlərdəndir. Uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binalarının tikilməsi, dini müəssisə və icmaların bərpası, uşaq bağçalarının tikilməsi, yaxud bərpası, uşaq əyləncə mərkəzlərinin yaradılması və s. görülən tədbirlər sosial fəaliyyətin mahiyyətini təşkil edir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Kor və zəif görən uşaqların informasiya kommunikasiya texnologiyalarına çıxışının təmin olunması" kimi layihələr alternativi olmayan xeyirxahlıq, humanistlikdir.

"Təhsilə dəstək" layihəsi çərçivəsində 2004-cü ildən başlayaraq yeni dərs ilinin əvvəlində qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və dərs ləvazimatının paylanması ruh yüksəkliyi ilə həyata keçirilmişdir.

Fond tərəfindən 2005-ci ildən etibarən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir. Fondun "Təhsilə dəstək" layihəsi yalnız Azərbaycan hüdudlarıyla çərçivələnməmişdir. Belə ki, Fondun dəstəyilə Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. Pakistanın Müzəffərabad şəhəri Rara ərazisində zəlzələdən sonra dağılmış qızlar üçün yeni orta məktəb binasının inşası ən uğurlu və önəmli layihələrdəndir.

2017-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi uğurla icra olunmuşdur. 2016-cı il aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabit layihə çərçivəsində yüksək texnologiyalı protezlərlə təmin edilmişdi.

Heydər Əliyev Fondu təhsil, mədəniyyət, maarif, elm, texnologiyalar, ekologiya və idman sahələrində müxtəlif layihələrə dəstək verməklə, həm ölkə çərçivəsində, həm də beynəlxalq səviyyədə fəaliyyət göstərir.

Xarici ölkələrdə də sosial layihələr həyata keçirən Fond Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım etmişdir. 2011-ci ilin sentyabrında Fransa Prezidenti Nikola Sarkozinin dəstəyi və Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə Parisdə terrorizm qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə maliyyə yardımı edilmişdir.

➡ 3

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva:***
***"Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır".***

Mehriban xanım Əliyevanın fəaliyyətində Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində, Azərbaycanın sivilizasiyalararası dialoqda fəal iştirakı və rolu xüsusi bir yer tutur. Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə əlaqələri xüsusi yer tutur. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva bu mötəbər qurumun tribunasından Azərbaycanın üzləşdiyi çətinliklər, işğal faktı və işğal nəticəsində Azərbaycan mədəniyyətinə, milli-mənəvi abidələrinə dəyən zərərləri dünya ictimaiyyətinə çatdırır.

Mehriban xanım həm qadın, həm ana, həm də yeni siyasi təfəkkür daşıyıcısı olan dövlət xadimi kimi Azərbaycan üçün nümunədir, qadınların ictimai fəallığını əks etdirən yeni modelin müəllifidir.

Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı müasir dünyada nümunəvi fəal qadın və siyasi xadim kimi də qəbul edilir. Əlbəttə, bu, bütün Azərbaycan xalqını sevindirir, cəmiyyət layiqli dövlət adamı ilə qürur duyur.

***Azərbaycan xalqının sevilən övladı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı 60-illik yubileyi münasibətilə ürəkdən təbrik edirik. Mehriban xanıma bütün sevdikləri, doğmaları ilə birlikdə can sağlığı, xoş günlər Azərbaycan dövlətinin inkişafı, xalqımızın xoşbəxt gələcəyi naminə, milli-mənəvi dəyərlərimizin təbliği yolunda fəaliyyətində daim uğurlar, yeni-yeni nailiyyətlər diləyirik.***

# SƏYYAR GÖRÜŞLƏR ƏHƏMİYYƏTLİDİR





Avqust ayında növbəti səyyar görüş Mürsəqulu kəndində keçirilmişdir. Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib.

Xol Qaraqaşlı kəndində şəhidlərin xatirəsinə inşa olunan xatirə kompleksi ziyarət olunub və önünə gül dəstələri düzülüb.

Görüşdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər "İdmana göstərilən dövlət qayğısı, bu sahədə uğurların əldə olunmasını şərtləndirən vacib amillərdəndir" mövzusunda görüş iştirakçılarını məlumatlandırıblar. Ölkəmizdə idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən olması, Azərbaycan idmanının hər zaman dövlət rəhbərimizin yüksək diqqət və qayğısı ilə əhatə olunması, Prezident cənab İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi idman siyasətini uğurla həyata keçirməsi haqqında geniş məlumat veriblər.

Neftçala RİH-in Başçısı Mirhəsən Seyidov çıxış edərək bildirib ki, Azərbaycanda çoxsaylı idman növləri üzrə ən müasir standartlara cavab verən infrastruktur qurulub, ayrı-ayrı regionlarımızda olimpiya idman kompleksləri tikilib, idman federasiyalarının fəaliyyəti, idmançılarımızın problemlərinin həlli dövlətimizin daimi diqqətindədir. Prezident cənab İlham Əliyevin hər dəfə beynəlxalq yarışlarda iştirak edən idmançıları qəbul etməsi, onlarla səmimi söhbətlər aparması, idman sahəsinə aid xüsusi sərəncamlar verilməsi də dövlətimizin başçısının idmana, idmançılara olan diqqət və qayğısını nümayiş etdirir. RİH-in başçısı bildirib ki, ölkəmiz son onilliklərdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 kimi bir çox mötəbər beynəlxalq idman tədbirlərinə, dünya çempionatlarına ev sahibliyi edib. Bütün bunlar Azərbaycanda idmana kütləvi marağı artırmaqla yanaşı, digər sahələrdə də irəliləyişlərə kömək göstərir. Neftçala RİH-in başçısı Neftçala rayonunda görülən yenidənqurma işləri haqqında görüş iştirakçılarına məlumat verib.

Səyyar qəbul zamanı vətəndaşlar kənddaxili yolların təmiri, kənd ərazisində aptek açılmasına, idmançıların geyim formaları ilə təmin olunmasına köməkliklə əlaqədar müraciətlərini səsləndiriblər. Vətəndaşların səsləndirdikləri müraciətlər ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə olunub və həllinin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya, rayon ərazisində aparılan abadlıq- quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə bildirilib ki, vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan "Rəqəmsal İcra Hakimiyyəti https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.

# BALIQÇILIĞIN İNKİŞAFI VACİBDİR

Neftçala rayon İcra Hakimiyyətinin təşkilatı dəstəyilə Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası idarə heyətinin Neftçala ərazisində balıqçılıq fəaliyyətilə məşğul olan hüquqi və fiziki şəxslərlə "Azərbaycan Fish-Farm" MMC-də görüş keçirilib.



Yığıncağı giriş sözü ilə açan Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyanın sədri Zaur Salmanlı, akvakultura sahəsində ciddi potensiala malik olan Neftçala rayonu ərazisində ərzaq təhlükəsizliyilə bağlı Dövlət proqramının həyata keçirilməsi istiqamətində görülməsi vacib olan işlər haqqında ətraflı məlumat verib.

Görüşdə Neftçala və Salyan rayonundan olan ümumilikdə 30 nəfər nohur balıqçılığı ilə məşğul olan fiziki və hüquqi şəxslər iştirak edib. Görüş zamanı kənd təsərrüfatının digər sahələrində olduğu kimi, balıqyetişdirmə sahəsinə subsidiyaların ayrılması, balıq yeminə olan tələbatın standartlara cavab verən keyfiyyətlə təmin olunması, beynəlxalq standartlara uyğun yeni texnologiyaların tətbiqi ilə məhsuldarlığın artırılması, nohur göllərində sudan istifadə qaydaları, verilən suyun qiyməti barədə yığıncaq iştirakçıları ilə maraqlı fikir mübadiləsi aparılıb, mövcud vəziyyət və qarşıya çıxan çətinliklər müzakirə olunub.

# BİZİ MİLLƏT KİMİ QORUYUB SAXLAYAN DİLİMİZ ƏDƏBİYYATIMIZ, TARİXİMİZ, ƏNƏNƏLƏRİMİZDİR!

Minilliklərdən uzanan tariximizin simvolu, xalqımızın qədimliyinin təsdiqidir ana dilimiz. Ulu Qorqud Dədəmizdən günümüzə misilsiz ərməğan, sabahımıza əmanətdir doğma dilimiz. Bəli, ana dili elə bir böyük məhfumdur ki, xalqın kimliyini, milli varlığını özündə əks etdirir. Keçmişindən gələcəyinə doğru yaşadır, ruhunu canlandırır, milli birliyini qoruyur, onu daim diri tutur. Bu baxımdan da milli bayramlarımız sırasında önəmli yer tutan əlamətdar günlərdən biri olaraq sevə-sevə qeyd edilir- "1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü". Bu tarixi gün xalqımızın ictimai-siyasi həyatı ilə yanaşı, varlığının, yaşamının təcəssümü, milli dəyərlərə qayıdışın əvəzsiz imzası, milli kimliyinin əsasını təşkil edir.

Tariximizə nəzər salsaq görərik ki, dilimiz də torpaqlarımız, ərazilərimiz kimi zaman-zaman təcavüzə, qəsdə məruz qalmış, planlı assimilyasiyalarla üzləşərək ağır repressiyalar dönəmini yaşamışdır. Məqsəd isə aydındır-keşməkeşli tariximizdən boylanan xalqımızın əzab və məhrumiyyətləri bahasına milli düşmənlərimiz tərəfindən millətimizin öz kökündən qoparılması, qədim ənənələr və dəyərlərimizdən uzaqlaşdırılması, zəngin ədəbi nümunələrimizdən ayrı salınmasına yönəlik qərəzli planlar olmuşdur.

Bəli, xalqa edilən bəlkə də ən böyük qəsdir, onun dilindən və əlifbasından vurulması. Belə ki, Azərbaycan xalqı tarixin gedişatı ilə ayrı-ayrı dönəmlərdə müxtəlif əlifbalardan istifadə etmiş, yalnız XX əsrin əvvəllərində latın qrafikalı yeni əlifbaya keçilməsi ilə dilçiliyimizlə bağlı ilk addım atılmışdır. Bu baxımdan da, 1922-ci ildə Azərbaycan hökumətinin xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulmasını təmin etmək məqsədilə əlifbamızın dəyişilməsi qərarı ana dilimizin qorunması və inkişafı yolunda ilk mərhələnin təməli hesab etmək olar. 1923-cü ildən başlanılmış 1929-cu ildə başa çatdırılmış bu mərhələ Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifbanın tətbiqi işini həyata keçirmişdi. Çox təəssüf ki, bu proses uzun sürmədi, xalqımız qısa bir fasilədən sonra yeni bir əlifba dəyişimi ilə üzləşdi. Latın qrafikalı əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş millətimizə tamamilə yad olan yeni əlifba ilə əvəz olundu. Milli varlığımızdan, kökümüzdən ayrı salınmağa istiqamətləndirilmiş bu keçidlər əlbəttə ki, nəinki yazılı ədəbiyyatımıza, xüsusən də tariximizə böyük zərbələr vurdu, xalqımızın həddsiz məhrumiyyətlərlə üzləşməsinə, çox itkilər yaşamasına səbəb oldu.

Ulu Öndər demişdir: "... Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir". Bu gün dünya xalqları sırasında Azərbaycan adlı müstəqil dövlətin eyni adlı dövlət dili olan Azərbaycan xalqı layiq olduğu ən böyük uğurlarını yaşayır. Bu əlbəttə ki, vətənimizin yetişdirdiyi böyük oğulların səyinin, əməyinin nəticəsində əldə olunmuşdur. Onlardan biri də azərbaycançılıq ideyasının yaradıcısı, milli-mənəvi dəyərlərin hər zaman qoruyucusu xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyevdir. Fəaliyyətinin bütün dövrlərində onun doğma dilimizin qorunması istiqamətində müstəsna xidmətləri tariximizin işıqlı səhifələrində yaşayır.




Heydər Əliyev hələ hakimiyyətinin ilk illərində, rus-sovet şovinist rejiminin ağır dönəmlərində belə milli dəyərlərimizə sadiqliyini göstərmiş, dilimizin qorunması və inkişafı istiqamətində mühüm addımlar atmışdır. 1978-ci ildə-rus dilinin hakim dil olduğu Sovetlər Birliyi dönəmində o vaxtkı SSRİ rəhbərliyinin etirazlarına baxmayaraq Heydər Əliyev böyük qətiyyətlə Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edilməsinə nail olmuş, gələcək müstəqil dövlətçiliyimizin milli rəmzlərindən biri olan ana dilimizi məharətlə qorumağı bacarmışdı. Heydər Əliyev hakimiyyətinin sonrakı dönəmlərində də bu müqəddəs vəzifəni layiqincə davam etdirdi və xalq qarşısında ən böyük tarixi missiyasını həyata keçirtdi. Belə ki, 1991-ci il dekabr ayının 25-də qəbul edilmiş "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında", 1992-ci il dekabrın 22 - də imzalanmış "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunlarının praktikaya yönəldilməsini təmin edən sənədin məhz onun imzası ilə tarixə düşməsi bunun bariz nümunəsidir. Beləliklə də, ölkədə latın qrafikalı milli əlifbaya keçid prosesi Ümummilli Lider Heydər Əliyevin 18 iyun 2001- ci il tarixli fərmanı ilə 79 ildən sonra öz tarixi əsasına yenidən qovuşdurdu, əhəmiyyətini daha da artırdı. 2001-ci il avqustun 9 - da Ulu Öndər tərəfindən daha bir tarixi əhəmiyyətli fərman imzalandı. Məhz həmin Fərmanla 1 avqust - "Azərbaycan Əlifbası və Azərbaycan dili Günü" elan edildi. O vaxtdan etibarən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında "Azərbaycan Əlifbası və Azərbaycan dili Günü" kimi qeyd edilir. 2002-ci ildə artıq qanunların ən alilərindən biri olan "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilir. Bütün bunlar Azərbaycan dilinə dövlət qayğısının nəticəsi, Ulu Öndərin ana dilimizə hədsiz sevgisinin yüksək nümunəsi, xalq qarşısında misilsiz xidmətlərindən biri idi.

Ulu Öndər Heydər Əliyevin dil siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Doğma dilimizə, milli dəyərlərimizə hər zaman böyük həssaslıqla yanaşan, ***"Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir"*** fikirlərinin müəllifi möhtərəm Prezidentimiz İlham Əliyev həyata keçirtdiyi dövlət siyasətində ana dilimizin qorunması və dilçiliyimizin inkişafı üçün mühüm işlər görür. Ölkə Başçısı İlham Əliyev hələ hakimiyyətinin ilk illərində kütləvi nəşrlərin latın qrafikasına keçidini təmin edən, şəxsi təşəbbüsü ilə Azərbaycan ədəbiyyatını, milli düşüncəni əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi ilə bağlı mühüm işlər həyata keçirtmişdi. Onun 2004-cü il yanvarın 12 - də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı həm də, əlifba ilə bağlı problemləri tamamilə aradan qaldırdı.

Bəli, tarix boyu Azərbaycanın dahi oğulları Azərbaycan dilinin keşiyində, müdafiəsində mətanətlə dayandı, onun təəssübünü çəkdi, haqqını qorudu. Dədə Qorquddan dahi Nizamiyə, Şah babamız Xətaidən, Füzulidən Vaqifə, Aşıq Ələsgərdən Mirzə Fətəli Axundova, Sabirə, Müşfiq, Hüseyn Cavid və xalqımızın yüz illər, min illər boyu yetirdiyi neçə-neçə təfəkkür sahiblərinin, işıqlı maarifçilərimizin dəyərli söz, sənət incilərinin sevərək can verdiyi doğma ana dilimizin qorunmasını Heydər Əliyev müdrik uzaqgörənliklə yaşatdı, hazırda isə bu şərəfli missiya möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir.

Bütün dövrlərdə, bütün zamanlarda doğma ana dilimizi böyük sevgi ilə mühavizə edən, yaşadan örnək simalar Azərbaycan var olduqca yaşayacaq, onların mənəvi dəyərlərimizin qorunması uğrunda misilsiz xidmətləri heç zaman unudulmayacaqdır.

*Nəzakət QULUQIZI*

---

**ZAUR ƏRMUĞAN**

***HADRUT FATEHİ***

***(Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılova həsr edirəm)***




**Babaların nəfəsi qızıl damarlarında,**
**Bu oğul vətən oğlu, bu oğul yurd oğludur.**
**Mübarizlik əzmi var, güc, qüdrət, mərdlik onda,**
**Yenilməz bir igiddir, bu bir boz qurd oğludur.**

**Bir ata nəsihəti, bir də ana öyüdü,**
**Əcdadlardan bu günə qalan tarix yaddaşı**
**Əzəl gündən onu mərd, qorxmaz, cəsur böyütdü,**
**Əlindəki silah da ona savaş qardaşı.**

**Müqəddəs andı idi vətənə sədaqəti,**
**Vətən üçün, el üçün yurd daşı doğuldu o.**
**Sarsılmadı heç zaman köksündə dəyanəti,**
**Sinəsi sipər olan qəhrəman ər oldu o.**

**"Vətən", "Vətən", -- deyirdi, -- "Torpaq",**
**"Torpaq", -- deyirdi,**
**Onun hər kəlməsində qürur, ləyaqət vardı.**
**Doğma Azərbaycanı canından çox sevirdi,**
**Şücaət olan yerdə ölməzlik bərqərardır!**

**Diz çökdürdü yağını hünər meydanlarında,**
**O, düşmən üzərinə yeriyən canlı silah.**
**Deyirdi: -- Qılıncımız qalmayacaqdır qında!**
**Qələbə xəbəriylə açılırdı hər sabah.**

**Döyüşlərdən güc alıb sadiq qaldı andına,**
**Ayağı dəyən yerdən od saçıldı şimşəktək.**
**Fədaidir, məğrurluq həkk olubdur adına,**
**Vətənlə döyünürdi vətən boyda bir ürək.**

**O bir Hadrut fatehi, o bir hücum aslanı,**
**Adını gələcəyə əməli daşıyacaq.**
**Həqiqətin yolunda car çəkən haqq üsyanı**
**Onun amallarında əbədi yaşayacaq.**

**Şəhidlik zirvəsinə ucalmış hünərpərvər!**
**Yer də, göy də şahiddir, bir sönməz məşəldir o!**
**Qəhrəmanlıq nəğməsi bu el dilində əzbər,**
**İftixar abidəsi, qəlblərdə guşədir o!**

# BİLİK YEGANƏ MEYARDIR ---TƏLƏBƏ ADIN MÜBARƏK!



**Neftçala rayon ümumi təhsil müəssisələri üzrə 2023-2024-cü tədris ilində buraxılış və qəbul imtahanlarının nəticələrinə əsasən 600-dən yuxarı bal toplamış şagirdlər:**

**1. Quluzadə İdris Elmar oğlu - 666 bal**
**Neftçala şəhər 1 saylı tam orta məktəbi**

**2. Nəcəfzadə Türkan Nəsif qızı - 664 bal**
**Neftçala şəhər 4 saylı tam orta məktəbi**

**3. Hacıyeva Sevinc Rövşən qızı - 662 bal**
**Neftçala şəhər 4 saylı tam orta məktəbi**

**4. Babayev Əliəkbər Zabil oğlu - 660 bal**
**Neftçala şəhər 4 saylı tam orta məktəbi**

**5. Hüseynli Aysun Aydın qızı - 642 bal**
**Xolqarabucaq kənd tam orta məktəbi**

**6. Əhmədli Həyat Elxan qızı - 638 bal**
**Qədimkənd kənd tam orta məktəbi**

**7. Ağalarov Mircəlal Əli oğlu - 633 bal**
**Astanlı kənd tam orta məktəbi**

**8. Səlimov Fəqan Vüqar oğlu - 630 bal**
**Astanlı kənd tam orta məktəbi**

**9. Bədəlov Məhəmməd Vüsal oğlu - 624 bal**
**Neftçala şəhər 1 saylı tam orta məktəbi**

**10. İbrahimbəyli Fidan Mübariz qızı - 621 bal**
**Neftçala şəhər 3 saylı tam orta məktəbi**

**11. Səlimova Nəsrin Rauf qızı - 618 bal**
**Aşağı Surra kənd tam orta məktəbi**

**12. Məmmədova Tinatin İlham qızı - 617 bal**
**Neftçala şəhər 2 saylı tam orta məktəbi**

Tələbə adını qazanmış bütün abituriyentləri təbrik edirik. Rayonumuzun gənclərinin təhsil sahəsində qazandığı uğurlar onların valideynləri, doğmaları, müəllimləri ilə birlikdə hər birimizi sevindirir. Bu günün təhsilli gənci sabahın aparıcı mütəxəssisi, ölkəmizin yüksəlişində, inkişafında xidmət göstərəcək vətəndaşıdır. Biz fəxrlə baxırıq gəncliyə, onların çalışqanlığı, məsuliyyətlə gələcəyə doğru inamlı addımları bizi sevindirir. Bu il Neftçala rayonunda çoxlu sayda abituriyent tələbə adını qazana bilmişdir. Onlardan 600-dən yüksək olanları qeyd etsək də bütün tələbələrimizin nail olduğu göstəricilərə görə təhsilimizin qazandığı uğurlar bizi qürurlandırır. Hər bir müsbət nəticəli işin arxasında gərgin, inamlı zəhmət dayanır. Zəhmət isə heç zaman itmir. Qazandığın nə varsa sənin insan kimi inkişafında müstəsna əhəmiyyətə malikdir. İnsan olan kəs isə ilk növbədə öz kökündən, soyundan, milli mənsubiyyətindən kənarda xoşbəxtlik aramır, axtarmır. Bacardıqca xalqı, dövləti üçün xeyirli olan yolları işıqlandırmağa çalışır.

Əziz tələbələr! Bu gün Azərbaycan dövləti öz müstəqillik yolunda şərəflə, qürurla addımlayır. Bu şərəfli yolu bizə nəsib edən, ömrünü vətən üçün fəda edən əziz şəhidlərimizin unudulmaz xatirəsini ehtiramla yad edirik. Qazilərimizə, veteranlarımıza can sağlığı diləyirik. İnanırıq ki, sizin istiqamət seçdiyiniz hər bir sahə Azərbaycan dövlətinin inkişafı üçün vacib sahədir. Və sizlər bu sahələrdə özünüzdən əvvəlki illərin, tarixin ən layiqli dəyərlərini örnək bilərək ləyaqətlə yeni uğurlara doğru addımlayacaq, daha xoşbəxt, insanlarımızın güvəndiyi bir cəmiyyət üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Əziz GƏNCLƏR! Həyatda xeyirlə şəri, yaxşı ilə pisi, ədalətlə rəzaləti hər bir insan özü seçir, özü təyinat, özü qərar verir. Əlbəttə ki, bu gün cəmiyyətimizdə xoşagəlməz hallar da yox deyildir. Lakin sizlərin qazandığı uğur Azərbaycan dövlətinin şəhidlər yolu üzərində qurulan ən etibarlı qəsridir. Silahı elm, mənəviyyatı mənsub olduğu xalqın inkişafı, möhkəmliyi, xoşbəxtliyi olan hər bir gəncimizin əldə etdiyi xeyirli nəticə qurur mənbəyimizdir.

Sizə bu yolda vətənə sədaqət, kökə etibarlılıq, gələcəyə inam və məsuliyyətlə getməyi, bu yolda daim sərvaxt olmağı diləyirik. Allah qorusun sizləri, Sizlərin simasında bütün dəyərli Azərbaycan gənclərini.

***Bədirə Niftaliyeva***

---

# Nursuz göz kimidr elimsiz ürək!

**"Elmlə, ədəblə tapılar şərəf, Mirvari olmasa , nə lazım sədəf".-**
**(Nizami Gəncəvi)**

**"Bir müddət öyrənməyin ağrısını çəkməyən, ömrü boyu cahillik zillətini daşıyar".-(İmam Şafii)**

**"Sual verməyə əsla son qoymayın.Hər şeyi bilmək həvəsi insana elə-belə verilməyib. -(Albert Eynşteyn)**

**"Bütöv elm konteksinə salınmamış ayrıca bir ideya, nə qədər dərin olsa da, hələ elmi bilik sayıla bilməz".-(Əbu Turxan)**

**"Xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadırdir!"-Faradey**

**"Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur".-(Puankare)**

**"Nəzəriyyə elmin ruhu, təcrübə - bədənidir. Nəzəriyyəsiz fikir dənizində və faktın meşəsində asanlıqla azmaq olar".-**
**(D. İ. Mendeleyev )**

**"Bilik öyrənməyi ar bilən hər kəs,**
**Dünyada mərifət qazana bilməz.**
**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz,**
**Hər uca zirvədən, bilin ki, fəqət.**
**Alimin rütbəsi ucadır, əlbət!" -**
**Nizami Gəncəvi**

**"Ey müəllim, aləti-təzvirdir əşrarə elm,**
**Qılma əhli-məkrə təlimi-məarif, zinhar!**
**Hiylə üçün elm təlimin qılan müfsidlərə,**
**Qətli-am üçün verər cəllada tigi-abidar". -**
**Məhəmməd Füzuli**

**"Kim özünü xalqın maariflənməsinə həsr edirsə, mükafatı özündə tapır, öz vicdanını təmizləyir". -**
**Həsən bəy Zərdabi**

**"Sən nə qədər bilirsən bil, sənin biliyin qarşındakının anladığı qədərdir". -Cəlaləddin Rumi**

# PAMBIQ YIĞIMI MÖVSÜMÜNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Pambıq, daha çox əl əməyi tələb edən qiymətli bir bitkidir. Kənd təsərrüfatı zəhmətkeşlərinin gərgin əməyi hesabına əmələ gələn bu qiymətli sərvətin qorunması tarlalarda, pambıqqurutma meydançalarında, tədarük məntəqələrində, pambıq emalı zavodlarında yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasından çox aslıdır.

Pambığın yanğından mühafizə olunması ilə əlaqədar birinci növbədə qeyd olunmalıdır ki, bu qiymətli bitkinin yığılması, tədarükü və emalı ilə məşğul olan bütün kənd təsərrüfatı və fermer müəssisələri, digər obyektlərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasına məsuliyyət daşıyırlar. Kənd təsərrüfatı müəssisələrinin və digər obyektlərin rəhbərləri, fermerlər pambıq yığımı mövsümünün başlanğıçında bütün texnikanı yanğına qarşı hazırlamaqla yanaşı, işçilərin yanğına qarşı bilgilərlə təlimatlandırılması üçün cavabdeh şəxslər təyin etməlidirlər.

Pambıq yığımında, onun daşınması və emalında kənd təsərrüfatı texnikalarının – traktorların, pambıqyığan maşınların, yanacaq daşıyan nəqliyyatın istismarına yalnız dövlət yanğın nəzarəti xidməti əməkdaşlarının iştirakı ilə xüsusi komissiyanın razılığı olduqdan sonra icazə verilməlidir.

Xam pambığın yığılmasına, daşınmasına və emal olunmasına cəlb olunmuş bütün kənd təsərrüfatı maşınları mütləq ilkin yanğınsöndürmə vəsaitləri ilə, qığılcım söndürənlərlə, süpürgələrlə və üzərində yanğına qarşı təbliğat mövzuzunda yazılı olan dəmir lövhələrlə təmin olunmalıdır.

Pambıq yığan maşınlar, traktorlar, nəqliyyat vasitələri məhsul yığımına cəlb edilərkən onların qidalanma, alışdırma sistemləri, sürtülən hissələri, tüstüboğucu sistemləri diqqətlə yoxlanmalıdır. Pambıqyığan və pambıq daşıyan maşınların tüstüboğucu boruları saz, kollektorların birləşmələri kip olmalı və atqı boruları saz qığılcımsöndürənlərlə təmin edilməlidir. Atqı borularının və qığılcımsöndürənlərin içərisində əmələ gələn qurum müntəzəm olaraq təmizlənməlidir.

Mühərrikin qızmış hissələrinə xam pambığın düşməsinin qarşısını almaq məqsədilə örtüksüz və ya açıq örtüklü texnikanın istismsr olunması yolverilməzdir.

**Nasazlıq aşkar edilmiş texnikanın məhsul yığımına buraxılması qəti qadağandır.**

Pambığın yanğından qorunması üçün digər yanğın təhlükəsizliyi qaydalarına da əməl olunmalıdır. Belə ki, tarlaların, xırmanların ərazisində və yaxınlığında tonqal qalanmasına, açıq oddan istifadə edilməsinə, siqaret çəkilməsinə icazə verilməməlidir.

Pambıq yığımı zamanı pambıqyığan maşının işi



qurtardıqdan sonra sahədə saxlanılması yanğın təhlükəlidir.

Tarlada pambıqyığan maşınların, traktorların, digər texnikanın yanacaqla təmin edilməsi mühərriklər söndürüldükdən sonra yanacaqdolduran maşınların vasitəsi ilə həyata keçirilməlidir. Gecə vaxtı yanacaq doldurmaq, qadağandır.

Pambıqla birlikdə maşında adam daşınmasına (məhsul üçün məsul şəxsdən başqa) yol verilmir.

Maşınlar pambıq tayalarına 5 metrə qədər məsafə saxlamaqla yanaşa bilər. Maşın pambıq olan yerə yaxınlaşan kimi dərhal mühərrik söndürülməlidir.

Maşına yüklənmiş pambığın üstü brezentlə kip örtülməli, maşında kimyəvi odsöndürən və kürək olmalıdır.

Pambığı daşıyan maşınların döşəmələrində yarıqlar olmamalıdır.

Traktorların, avtomobillərin, pambıqyığan maşınların dayanacaq yeri, həmçinin onların təmiri, yağlanması, yanacaqla doldurulması üçün nəzərdə tutulmuş yerlər pambıqqurutma meydançalarından ən azı 50 metr aralı məsafədə olmalıdır.

Xam pambıq tayaları mütləq brezentlə örtülməlidir. Pambıqtəmizləmə zavodlarının, pambıq qəbulu və tədarükü məntəqələrinin ərazisi quru otdan, yerə dağılmış pambıqdan, zibildən daima təmizlənməlidir.

Xam pambıq yalnız gündüz qəbul edilməlidir. Qəbul zamanı pambığın tədarük məntəqəsinin və ya zavodun həyətində yerə dağılmasına yol vermək olmaz. Bu yerlərdə siqaret çəkilməsi, açıq oddan istifadə olunması qadağandır.

Yanğınsöndürmə üçün su mənbəyi olan su hovuzlarına yollar salınmalı və hovuzların yanında avtomobillərin dönə bilməsi, manevr etməsi üçün 12x12 m ölçüdə bərk örtüklü meydançalar olmalıdır.

Kənd təsərrüfatı zəhmətkeşləri, fermer təsərrüfatlarında çalışanlar pambığın yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarını bilməklə, onlara riayət etməklə yanaşı, baş verən zaman nə cür hərəkət etmələrini də bilməlidirlər.

Pambıq tarlasında yanğın baş verərsə mövcud yanğınsöndürmə vəsaitlərindən, o cümlədən kimyəvi odsöndürənlərdən, ehtiyat sudan, süpürgədən və torpaqdan istifadə edərək dərhal yanğını söndürməyə başlamaq və texnikanı tarladan çıxarmaq lazımdır.

Xam pambıq tayalarında yanğın zamanı mövcud səs siqnallarından istifadə etməklə ətrafdakı insanları xəbərdar etmək, yanğın lülələrindən istifadə etməklə yanğın yerinə su vermək, torpaq atmaq, xam pambıq tayasını dağıtmaq lazımdır.İmkan olarsa islanmış brezent örtüklə xam pambığın üstü örtülməlidir.

Pambığın nəm halda maşında saxlanması, tayaya vurulması qadağandır. Unutmaq olmaz ki, nəm pambıq öz-özünə alışır.

Yanğın zamanı bütün hallarda dərhal yanğından mühafizə hissələrinə məlumat verilməlidir.

Qiymətli sərvəti–pambığı yanğından qorumaq hər bir vətəndaşın doğma işi olmalıdır.

**Muğan Regional Dövlət**

**Yanğın Nəzarəti İdarəsi**

# Beynəlxalq Azərbaycan Muğamı Günü

**Mehriban xanım ƏLİYEVA:** ***"Biz azərbaycanlılar hamımız, haqlı olaraq, öz doğma muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlərboyu öz mədəniyyətini formalaşdırmışdır. Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm muğam gözəlliyin və məhəbbətin rəmzidir - səhv etmərəm".***

Şərqin ən qədim musiqi janrlarından biri olan muğam əsrlərdən bəri tədqiqatçıların diqqətini cəlb etmiş, bu gün də dünya musiqi mədəniyyətinin öyrənilməsində mühüm təhlil obyektidir. Azərbaycan xalqının qədim irsi olan bu incəsənət növü tarixən enişli-yoxuşlu yollardan keçsə də, xalqımız onu qoruyaraq və inkişaf etdirərək nəsildən-nəslə ötürə bilib. Müstəqil Azərbaycanda isə milli muğam ifaçılığı yeni inkişaf mərhələsinə qədəm qoyaraq dünyanı fəth edir.

Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu Üzərində Yerləşən Ölkələrin Musiqisi Günü kimi elan olunub. Qərar Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul olunub. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün əziz bayramdır. Azərbaycan muğamının müasir tarixində ölkəmizin Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. YUNESKO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir.

Azərbaycanda bu sənətə dəstək üçün "Muğam aləmi" beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusu hazırlanıb.

Muğam Azərbaycan milli musiqi mədəniyyətinin uğurlarının əsasında durur. Dahi Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını muğam üzərində yazıb, Fikrət Əmirov "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarların yaradıcılığında muğamdan irəli gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur. Vaqif Mustafazadə bu janrı caz sənətinə gətirib.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar muğamın milli musiqimizin ana dili olduğunu bir daha təsdiqləyir. Hələ 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına muğamın tədrisi daxil edilib. Bu sənət rəssamlarımız, heykəltəraşlarımız, şairlərimiz, rejissorlarımız üçün bu gün də ilham mənbəyidir.

Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir.

Ustad və novator sənətkar, hələ 1999-cu ildə UNESCO-nun Beynəlxalq Musiqi Şurasının birinci mükafatına layiq görülmüş Alim Qasımovun muğamı özünəməxsus ifası və təqdimi bu sənətin geniş imkanları ilə dünya auditoriyasını heyran qoyur.

Xalqımızın şərəfli və keşməkeşli tarixini səslərdə əbədiləşdirən muğamlarımız ən ağrılı-acılı günlərimizdə həm də təskinliyimizdir.

Heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bütün hallarda – qüssəli, sevincli anlarımızda ovqatımıza təsir edir, azadlığa və müstəqilliyə qovuşduğumuz anların fərəhini yaşadır və bizləri daim irəli, qazandığımız qələbəni qorumağa səsləyir.

**"GÜNDOĞAR"**

# “GÜNDOĞAR” TƏQDİM EDİR



**Əziz oxucular! Qəzetimizin bu sayında sizə həmyerlimiz, şairə, “Aşıq Pəri” məclisinin üzvü Gülnarə Zeynalovanı təqdim edirik.**

**Zeynalova Gülnarə Cəfərqulu qızı 17 yanvar 1965-ci ildə Neftçala rayonunda anadan olub, ilk təhsilini Neftçala şəhər Ə. Piriyev adına 2 saylı orta məktəbində almışdır. 1982-ci ildə orta məktəbi bitirmişdir. Ailələdir. Üç övladı var. Hal-hazırda Neftçala rayon Xolqaraqaşlı kəndində yaşayır. 2024-cü ilin aprel ayından “Aşıq Pəri” Məclisinin üzvüdür.**

**Məlum olduğu kimi , “Aşıq Pəri” Məclisini həmyerlimiz Əməkdar Mədəniyyət İşçisi, şairə Narınc Xatun 1984-cü ildə çox böyük fədakar əmək sərf edərək yaratmışdır. Ruhu şad olsun. Bu gün çox xoşdur ki, həmyelimiz Gülnarə xanım Zeynalova Neftçalalı imzası ilə bu Məclisin tərkibində fəaliyyət göstərir. Bu gün də bu birliyi qoruyanlar, söz sənətinin ucalığını daim yüksək bilənlər azad ellərimizdə, Şuşada, Laçında, folklor-musiqi festivallarında iştiak edir, həmçinin televiziya proqramlarında da iştirak edərək xalqımızın söz çeşməsini qoruyurlar.**

**“Aşıq Pəri” Məclisinin yaradıcsı Narınc Xatunun davamçısı olaraq Gülnarə xanım söz sənətini ucaldan Məclis üzvləri ilə birlikdə bu gün işğaldan azad olan ellərimizdə müxtəlif tədbirlərdə iştirak edir, öz yaradıcılığı ilə seçilir. Gülnarə xanım doğma rayonumuzun adını da təxəllüs olaraq qəbul etmiş, Gülnarə Zeynalova Neftçalalı imzası ilə tanınır. Uğurlar diləyirik.**

## GÜLNARƏ ZEYNALOVA NEFTÇALALININ SÖZ BOXÇASINDAN...

### BAYRAĞIM

Baxdıqca ucalan bayrağımıza,
Sanki yaraşıqdır torpağımıza.
Qürur mənbəyidir hər birimizin,
Andı da bayraqdır əsgərimizin.
Vətənin simvolu gəzir dünyada,
Üç məna daşıyır çalarlarında.
Türkçülük rəmzidir mavi rəngi də,
Göy türkdən gəlmədir uzaq nəsil də.
Qırmızı canımız qurban deməkdir,
Şəhiddən tökülən al qan deməkdir.
Yaşıl da islamın rəngi, simgəsi,
İmanım, inamım, düzlüyün səsi.
Ay, ulduz ən uca zirvədir demək,
Göydəki hilaldan aldığı örnək.
Sabahlar boylanır dan ulduzu tək,
Dalğalı dənizdir əsəndə külək.
Torpaq bizə candır, canımız torpaq.
Vənim torpaqdır, anamız torpaq.
Harda torpağım var bir bayraq sancaq.
Yurdun hər qarışın canla qoruyaq.
Ucalsın hər zaman enməsin daha,
Onunla göz açaq nurlu sabaha.

### İKİ BİLƏK - BİR YUMRUQ

Əllərimdə qoşa bayraq,
Dalğalanır sayrışaraq.
İki dövlət bir millətək,
Bir-birinə qovuşaraq.

Azərbaycan doğma yurdum.
O biri də Türkiyəm,
Bir tərəfim boz qurdlardı,
Bir tərəfim Xətaiyəm...

Biz bir türkük, türk oğluyuq,
Azadlıqdır amalımız.
Əsirlərdir yol gəlirik,
Şərəflidir şah şanımız.

Vətən, torpaq anamızdır,
Biz də şərəf tərcüməsi.
Məqsədimiz qorumaqdır,
Ondan üstün yox ötəsi.

Qayəmiz bir, yolumuz bir,
Gücümüz də bir olunca.
Qoşalaşıb qoruyacaq.
Turan ellər var olunca.

Səlcuqlardan gələn ellər,
Sizinləyəm, silkələnin.
Ululardan qalan ellər
Meydan sizin, bir dirçəlin.

Nə qədər ki, iki bilək,
Birləşibdir bir yumruqda,
Qəhrəmanlıq simvoludur-
Onları qoruyan xalq da.

Müqəddəsdir bu torpaqlar,
Şəhidlər yatıblar burda.
Mərdliyin var nişanəsi-
Tökülən al qanlarında.

Candan keçən oğullar var,
Sarsılmayan ordumuzda.
Şərəflidir yaşamaq da-
Türkiyə, Azərbaycanda.

### NEFTÇALAM

Vətənnimdir Azərbaycan,
Sənə qurban məndə bu can.
Türkdən gələn soyumuz var,
Şöhrətlidir bizim diyar!
Yurdumun hər tərəfində,
Görürəm hər çəhətində.
Bol-bərəkət çoxdur burda.
Ana yurdum Neftçalada.

Gəlin sizə söhbət açım,
Doğulduğum torpağımdan.
Bu torpaq da başlayır ta,
Xəzərimin yatağından.
Məlhəmlidir duzlu su da,
Hamı gəzir isti qumda.
Şəfa tapır Neftçalada.

Səhər günəş şəfəqilə.
İlk oyanan şəhərdi o.
Özü də doğma yurduma-
Bol-bəhrəli nəmərdi o!
Torpağımın hər bir yanı,
Neftlə dolu çalalarda.
Görənlər heyran olurlar-
Qara qızıla Neftçalada.

Şirin sözlü ləhcəsi var,
Özünəməxsus məzəsi var,
Balıqlarla dolu olan.
Bol çeşidli süfrəsi var.
Dostları qonaq et burda,
Gələnlər razı qalacaq,
Qonaqpərvər Neftçalada!

Oğulları sıra-sıra.
Düşmənini yara-yara,
Yurduma sipər oldular,
Şəhidliyə ucaldılar!
Yetişdi dörd Qəhrəman da-
Xalqa fəxarət gətirdi,
Başı uca Neftçalada.

Böyümüşəm mən qoynunda,
Haqqın da vardır boynumda,
Adın ilə tanınacam,
Sənin ilə bu dünyada.
Ömür boyu yaşayacam,
Ana yurdum Neftçalada!.

### ŞUŞA

Şuşa adın əzbər bu dilimizdə,
Yddaşda iz qoydun tariximizdə.
Sənlə məşhur oldu Şəhidimiz də.
Tarixin şanslısı Şuşam, ay Şuşam.

İgidlər cıdırda çaldılar cəngi,
Verdilər düşmənə lazımı dərdi.
Düzülüb yollara şəkildən sərgi,
Qələbə əzmimiz Şuşam, ay Şuşam.

Neçə igidlərin burda can aldı,
Neçəsi düşməndən burda qan aldı,
Şəhidlər burada əbədi qaldı,
Ruhların məkanı, Şuşam, ay Şuşam.

Oğullar yığışdı intiqamına,
Dedilər çatasan arzu - kamına.
Samirin də Şuşa düşdü payına,
Ruhu burda qaldı, Şuşam, ay Şuşam.

### QARABAĞIM

Salam Qarabağım, Vətən torpağı,
Köksündən silindi illərin dağı,
Tanrım çox görməsin bu gözəl çağı,
Gözün aydın qovuşdun övladına.

İllərdir ki, səndən ayrrı saldılar,
Övladların pərən-pərən qaldılar,
Ər oğullar qisasını aldılar.
Gözün aydın qovuşmusan elinə.
Uca Yaradanım yetdi dadına.
Gözün aydın, qovuşdun övladına.

Torpağından qan qoxusu gəlincə
Ərlər silahını qoymadı dincə,
Hazır oldu Komandan əmr edincə,
Şükür Yaradanım yetdi dadına,
Gözün aydın, yetişdin övladına.

Torpağında şəhidlərin qanı var,
Müqəddəsdir bundan sonra bu diyar,
Gül açıb qoynunda bağçalar-bağlar,
Uca Yaradanım yetdi dadına.
Gözün aydın, qovuşdun övladına.

Bu qələbə asanlıqla olmadı,
Xarı bülbül açdı, daha solmadı,
Şükür, qisas qiyamətə qalmadı.
Uca Yaradanım yetdi dadına.
Gözün aydın, qovuşdun övladına.

### AZƏRBAYCAN

Azərbaycan, doğma yurdum,
məkanım,
1000 illərdir tarixdədir ad-sanın.
Fəxr edirik adın gəzir dünyada,
Qəhrəmanlar yetişdirdi torpağın.

Hər biri bir dastan igidlərin var,
Uğrunda canından keçibdi onlar.
Zirvələrdə dalğalanır bayrağın,
Valeh olur sənə gələn qonaqlar.

Bu günlərə yetişməyin zor oldu,
Açdı gül - çiçəyin, laləzar oldu.
Ər oğullar yetişdilər dadına,
Yağının arzusu tarimar oldu.

Bundan sonra bütöv görək torpağı.
Qarabağda yansın elin çırağı.
Arzumdur ki, vətənin hər yerində
Dalğalanın üç rəngli bayrağı.

Mətin xalqım, mənim elim, obam var,
Başımızda mərd dayanan adam var.
Millətimin imzası var dünyada,
“ Birlik qüvvətdir!”- deyə kəlam var.



### ŞƏHİD ANASI

Bir oğul gətirdi dünyaya ana,
Müqəddəs köksündən süd verdi ona.
Zəhmətlə böyütdü, ərsəyə gətdi.
Vətən sevgisiylə tərbiyə etdi.

Özü də yaşlandı övladı ilə.
Qürur da yaşadı savadı ilə.
Hələ əsgərliyi başa da vurdu.
Ana sevincindən quş tək ucurdu.

Arzusu oğluna toy eləməkdi,
Sonra da nəvəylə ömür sürməkdi.
Əfsus ki, vətənin başı dardaydı,
Oğullar ordunun harayındaydı...
Oğul da anadan dua istədi,
Vətən imdadına çata istədi.
Ana yola saldı xeyir-duayla,
Qəlbinə od saldı min bir duayla.
Hər gün dua-sana etdi Allaha,
Oğul qələbə ilə donsün yanına.

Nəhayət, o gün ki, zəfər çalındı,
Bütün el sevindi, güldü, oynadı.
Ana da sevindi bu şad xəbərə,
Lakin çox keçmədi qəlbi titrədi.

Zəfər bayrağını sancdığı zaman,
Düşmən nişan aldı, vuruldu oğlan.
Bu xəbər ananı möhkəm sarsıtdı,
Dağıldı dünyası, evi yıxıldı.
Zəfər bayrağıyla tabut sarıldı.
Ananın saçları o an ağardı.

Bir yandan qürurdu, bir yandan ağrı,
Hansını yaşasın, hansı ağırdı?..
Bax, burda bilinir ananın səbri,
Ana müqəddəsdir, cənnətdir yeri.

Səsi də tutuldu, saçını yoldu,
Qol açıb oynadı, tabutdan tutdu.
Mikrafon əlində əsdi, titrədi,
Tək bir kəlmə - “Vətən sağ olsun!”-
dedi.
Bu qədər böyüklük, bu qədər qürur,
Nə qədər acının ağrısın udur...

Qəhrəman oğuldur, yoxsa ki, ana?
Bəs şəhid oğuldur, yoxsa ki, ana?...
Ana da oğulla orduya getdi,
Ana da oğulla məzara girdi.

***Bədirə Niftaliyeva,***
***yazıçı-publisist, AYB-nin üzvü***

# ZAUR ƏRMUĞAN – “YOVŞAN ƏTRİ” POVESTİNDƏN

**(əvvəli qəzetimizin fevral(2024) sayında)**

-- Ay oğul, Fərrux? -- Anası Gülzar oğlunu çağırdı.

-- Hə! Gəldim!

Fərrux evdən bayıra çıxanda toxunma yun köynəyinin yaxasını düyməələyərək taxta pilləkənlə aşağıya düşdü.

-- Nə olub?

-- Ay bala, Elxan gəlib. Qəşəmin oğlu. Səni çağırır.

-- Hanı bəs?

-- Odur, atın tərkində, qapıda səni gözləyir. -- Gülzar arvad una bulaşmış əlləri ilə oxlovu xəmir yuxa üzərinə çəkir, sac üstə fətir bişirmək üçün quru alça ağacının altında bardaş qurmuşdu.

Fərrux tələsik həyətdən çıxdı. Taxta qapı cırıltı ilə açılanda at fınxırıb qulaqlarını şaqqıldatdı.

-- Salam, Fərrux dayı. -- Elxanın gözləri işıqlandı.

-- Hə, Elxan? Nə var, nə yox? Nə tezdən durmusan? -- Fərruxun sifəti güldü.

-- Məni atam göndərib. Səni gözləyir. Atı yəhərləmək istəyirik, Qonuru. İpə-sapa yatmır, kömək lazımdır. Mürsəllə Qasım da bizdədir, hələ Saday da gələcək.

Fərrux bir söz demədən ayağını üzəngiyə basıb atın tərkinə qalxdı. Elxan arxada yerini bərkidib nazik qolları ilə Fərruxun belindən yapışdı. At götürüldü.

Qəşəm obada yaşayırdı, Fərruxgilin olduğu obada -- Çayırlıda. Qonur atı da yaxşı bəsləmişdi. Atı tövlədən qırağa çıxarıb boğazına kəndir atmışdı. At çox ürkək idi, ona yəhər salmaq isə çox çətin olduğundan bu işin öhdəsindən tək başına gələ bilməzdi. Odur ki, kömək üçün adam çağırmışdı. Fərrux Qəşəmin qapısına çatanda Saday da artıq gəlib çıxmışdı. Mürsəllə Qasım da orada idilər. Görüşüb hal-əhval tutdular. At bərk ürkmüşdü, axı ilk dəfə idi ki, belinə yəhər taxılacaqdı.

Qonurun boynuna kəmənd atılmışdı. Bu, üç kəmənd idi. Hər kəməndin ucundan biri tutmuşdu. Mürsəl, Qasım və Saday əlləri ilə kəndirlərin ucundan möhkəm yapışmışdılar, həm də elə yapışmışdılar ki, kəməndin halqası sıxılıb atı boğmasın, at isə həndə-kəməndə gələnə oxşamırdı. Qəşəmin əllində yəhər, yüyən vardı. Atı sakitləşdirmək olmurdu. Fərrux diribaşlıqla dördüncü kəməndi atın boynuna tulladı. At şahə qalxıb kişnəmək istədikdə kəmənd hava ilə uçaraq heyvanın boynuna keçdi. Hərəsi bir yandan kəməndi çəkərək atı yerə yıxmaq istəyirdilər. At ortalıqda, cavanlar ilə əllərindəki kəndirlə heyvanın dörd bir yanında hərlənirdilər. Araya hay-həşir, bir küy düşmüşdü ki, Qəşəm cavanları sakitləşdirməkdə aciz olduğunu anlasa da, onlara atı ürkütməyə imkan da vermirdi. Mürsəl güc göstərərək kəndiri boynunun ardından kürəyinə keçirib əlləri ilə dartır, Qasım qıçını bükərək yanı üstə yerə yıxılacaqdı. At boynunu cəld və ürkək hərəkətlərlə ora-bura çevirir, hirslənərək yaxasını qurtarmağa çalışırdı. Sadayın əlindəki kəndir ovcundan çıxanda irəli atıldı, kəməndin ucunu əlinə aldı. Fərruxun səbri çatmadı. Özü bilərəkdən kəndiri yerə atıb atın beli üstünə şığıdı. Yəhərsiz, yüyənsiz, üzəngisiz at belinə qalxmaq asan iş deyildi. O bu işin öhdəsindən bacarıqla gəldi. Bu səhnəni görən hər kəs, elə balaca Elxan da heyranlığını gizlədə bilmədi. Qəşəmin, Mürsəlin, Qasımın, Sadayın da gözlərində, tər puçurlanan çöhrəsində Qonuru ram edən Fərruxa qarşı minnətdarlıq hissi əks olunurdu. Bunu onların isti baxışından, işıqlı çöhrələrindən duymaq o qədər də çətin deyildi. Cavan, boylu-buxunlu bu oğlan at belində igid və pəhlivan cüssəli görkəmi ilə nağıl, dastan qəhrəmanları kimi cəzbedici təsir bağışlayırdı. Fərrux atı o ki var qovdu. Qonur at ilk dəfə idi ki, tərkinə adam götürürdü. Fərrux kəməndin kəndirindən möhkəmcə tutub Qonuru çapırdı. Quşotulu çöl əsil cıdır meydanına çevrilmişdi. Fərrux atı qovduqca qovur, onu yorub əldən salmaq istəyirdi. Atın nəfəsi təngiyəndə əlacsızlığını hiss edibmiş kimi tərkində oturan bu çapara özünü ram etməklə canını qurtarmaq istədi. Qıçları əsirdi, nəfəsi tövşüyürdü. Sürətini yavaşıtdı. Yerindəcə durub qaldı. O, yerə oturdu. Atın arxasınca yüyürən oba adamları özlərini həmin yerə çatdırmaq üçün haldan düşdülər. Gəlib çatdıqdan sonra canları rahatlandı. Fərrux Qəşəmi görən kimi atın belindən endi. At özündə güc toplayaraq ayağa qalxdı. Qəşəm əlindəki yəhəri ehmalla atın belinə qoyanda Mürsəl də ona kömək etdi. Saday və Qasım kəməndən bərk tutmuşdular. Sısqa canı ilə hövlnak buraya çatmağa tələsən balaca Elxan gözləri qarşısında gördüklərinə inana bilmirdi.

-- Belə təslim olarsan ha! -- Elxan gülərək dedi.

Hamısı gülüşdülər.

-- Hə, Qonur! Daha əlacın yoxdur. Səni də yəhərlədilər. -- Qəşəmin gözləri doldu.

-- Bəs necə?! -- Qasım dindi. -- Bəs at nə üçündür? Bu yəhər nədən ötrü icad olunub? Hələ bir dayan! İndi sənə yüyən də taxacaqlar. Üzəngin də olacaq. Bir at olacaqsan ki, gəl görəsən.

Saday dedi:

-- Aman, Allah! Necə də yaraşır!

Fərrux özünü yerə yıxmışdı. Yorulub əldən düşdüyündən canını rahatlamaqdan ötrü kürəyi üstə quşotuluğa uzanmışdı.

Qəşəm yəhərin kəmərlərini bərkitdi. Ata yüyən, üzəngi taxıldı.

Qəşəm heyvanın belinə yumşaq bir şapalaq çəkdi:

-- Hə, Qonur! Hə! Qalx görüm! -- Qəşəm çox həyəcanlı idi; o həm sevinir, həm də kövrəlirdi. -- Mübarəksən! Gərək məni bağışlayasan da! Ayrı əlac yox idi.

Qəşəmin səsində həzin, mehriban və mülayim bir nəvaziş vardı.

Fərrux torpağın üstündən qalxıb ata sarı gələndə Qəşəm üzünü ona tutub dedi:

-- Əgər sən olmasaydın, Fərrux, kim bilir, bu işin axırı necə olacaqdı?!

-- Mən nə etdim ki?! Atı yaxşı bəsləmisən. Sağlam, gümrah, özü də elə çapır ki, dırnaqlarından od tökülür. Xeyirli olsun!

-- Sağ ol! -- Qəşəm cavab verdi.

Elxan dilləndi:

-- Atacan, Qonur məni tərkinə alar? Ata minmək istəyirəm. Fərrux dayı gör necə çapırdı?!..

Gülüşdülər. Fərrux Elxanın kürən saçlarını tumarladı. Elxanın üzü güldürdü. Atası Qəşəm dedi:

-- Hələ tələsmə! Yol böyüyün, su kiçiyin. -- O, əlləri ilə atı sığalladı.

Saday dedi:

-- At igidin yaraşığıdır. Atalar düz deyib.

Qasım söylədi:

-- Bax buna deyərəm at. At ki yəhər görmədi, daha nə at oldu?!

Fərrux sözə qoşuldu:

-- Belə atla gəlin gətirəsən.

Hamısı sevincək oldu. İlıq bir təbəssüm işartıları oba adamlarının sifətini gün şəfəqi kimi oxşadı.

-- Bəzəyəsən qırmızı qotazlarla. Fayton da qoşasan, nə aləm olar! -- Mürsəl dedi. -- Gün olsun ki, Elxanın toyunu görəsən, a Qəşəm.

-- Amin! Allah ağzından eşitsin, ay Mürsəl! Sağ olun hamınız! Zəhmət çəkdiniz, vallah! Əziyyətinizi halal eləyin! -- Qəşəm ona köməyə gələn cavanlara minnətdarlığını bildirdi.

Yol boyu bir-biriləri ilə söhbət edən adamlar Çayırlı obasına doğru düzdən dağılışırdı.

Qəşəm Qonuru minib çapdı. Qənşərində isə oğlu Elxanı oturtmuşdu. O, çox sevincək idi. Qonur bütün çölü, dərəni yel qanadında ötürdü elə bil. Fərrux həqiqətən haqlı idi: Qəşəm atı yaxşı bəsləmişdi.

***

Ertəsi günün axşamı Əzəmət isti sobanın qarşısında naxışlı kilimin üstündə bardaş qurub əncir qurusu ilə çay içəndə arvadı Hənifə qızı Sədaqətlə yanaşı oturub evin arxa divarı boyunca qurulmuş hanada xalı toxuyurdu. Bu xalıda onların ikisi də öz arzularını dilə gətirirdi. Ala-bəzək iplər bir-birinə ilmə-ilmə sarmasıb ürəklərdə toxum kimi göyərən arzuları yarpaq-yarpaq, çiçək-çiçək ətirləndirərək dilə gətirir, dünyanı nağıl işığı ilə şirinləşdirirdi. Ananın öz arzusu, övladın öz istəyi, öz diləyi. İllər idi ki, Hənifə min bir əziyyətlə övlad böyütmüşdü; Sədaqət on doqquz yaşa qədəm qoymuşdu artıq. Gözünün ağı-qarası, bircəciyi idi bu qız. Ömrünün çoxu getmişdi Hənifənin. Gözləri isə qapıda, pəncərədə idi bu ananın: bir qeyrətli, əsilli-nəsilli igid, ər diləyirdi qızı üçün o. Axı nə edəydi? Köksündə döyünən ana ürəyi, qadın nəfəsi idi. Sədaqət halal süd əmmişdi. Ay parçası kimi dumduru, bulaq suyu qədər saf idi. Ona layiq ər də gərək nəcib ailədən çıxa, Sədaqətə yaxşı ər, namuslu bir kişi olaydı. Elə Sədaqəti də indi düşündürən bu idi. O, zərif əlləri ilə bərbəzəkli iplərdən xalı üzərinə naxışlı ilmələr salaraq xəyalən uzaqları dolaşır, könlündən budaq-budaq boylanan sevinclərini, arzularını, istəklərini bir-bir səssiz sözlərlə dilə gətirirdi. Ürəyindəkiləri söz-söz, kəlmə-kəlmə əlləri ilə, incə barmaqları ilə yazıya alırdı sanki. Onun üzü də, qaraca gözləri də sevincləri, arzuları kimi gülürdü. O, xoşbəxt idi. O sevirdi, qəlbindəki isə xəyalını, əksini, səsini belə bircə an da unuda bilmədiyi Fərrux idi. Ona elə gəlirdi ki, Fərrux da onu sevir. Hə, doğrudan da, bu belə idi. O yanılmamışdı. Hansısa bir hiss onu daha ağıllı düşünməyə, yanılmamağa sövq edirdi. Dərin düşüncələrin sonunda isə bütün əminliyi ilə inandığı bir fikir onun səhv etmədiyini doğruldurdu. Arx üstündəki o günkü təsadüfi görüşün xəyalı şirin bir nağıl olub Sədaqətin ürəyinə hopmuş, beyninə həkk olmuşdu. Daha bu nağılın bircə sətri də onun yaddaşından silinəsi deyildi. Bu nağıl o gündən bəri az qala hər axşam onun yuxularına girirdi. Sədaqət gecələr bu nağılla yatır, səhərləri isə bu nağılın çin olacaq arzusu ilə yuxudan oyanırdı. Görəndəki qəlbinin dərinliklərində kok salmış bir istəyin işığı bu yoldan da, qapıdan da gen dolaşır, özündən ixtiyarsız kədərlənir, daxilən təəssüf hissi keçirirdi. Belə məqamlarda onun əli, ayağı yerdən üzülür, dünya gözlərində heç olurdu. Düşünəndə ki, bunun əksi baş verə bilər, onda ürəyi gülürdü, gözləri sevincindən dolurdu. Bu necə olurdusa, özü də bilmirdi. Onda hər şey gözəlləşirdi. Dünya da, həyat da yenilənirdi. Həyətlərindəki qurumuş ağaclar da bir göz qırpımında göyərir, yaşıl yarpaqlar, çəhrayı çiçəklər də bağ-bağçanı, həyət-bacanı xoş ətri ilə təzələyirdi. Xəyallarından ayrılanda isə yenə əllərini aynabənddə yun çırpan, ayaqlarını da palçıqlı uzunçəkmələr içərisində tövlədən evə qayıdan görürdü.

Əzəmət çayını içib qurtarmış, mütəkkə üstə dirsəklənmişdi. Qotazlı təsbehini baş barmağı ilə dənə-dənə çevirir, hərdən xalıya baxırdı.

Hənifə bu xalını toxumağa başlayanda yay qurtarırdı, qorabişirən ayı idi onda. Payızın xəzəli qapı ağzına yığılanda xalı yarıya qədər toxunmuşdu artıq. Sədaqət də anasına kömək durduğundan iş rahat gedirdi. Daha qış da yaxınlaşır. Çox keçməz, xalı tamam hazır olub hanadan kəsiləcəkdi.

***

Zəki kişi həyətin bir küncündə qalaqlanmış odunları balta ilə bir-bir yarıb evin altına yığan oğlu Fərruxu səsləyəndə Gülzar arvad yuduğu paltarları ipə sərirdi.

-- Fərrux, ay Fərrux?

Əlindəki odunları yerə qoyub üzünü atasına tutdu:

-- Gəldim, dədə.

Zəki arvadını çağıranda Gülzar ipdən əlini çəkib teşti kənara qoydu. Ana-bala ikisi də tövləyə girdilər.

-- Sən bir buna bax. Gör nə gözəldir, dünyanın yaraşığıdır bu. Bəh-bəh! -- Zəki sevinir, üz-gözündən fərəh süzülürdü.

-- Bıy! Başıma xeyir, ay kişi! Bu nə şirindir!

-- Bu, dünyanın möcüzəsidir, arvad. Hə, möcüzədir. Bəs nə bilmişdin?!

-- Gör necə oxşayır anasına! Dizləri də ağdır. -- Fərrux çöməlib təzə doğulmuş balaya təbəssümlə baxırdı.

Zəki ürəkdən gülməyə başladı. Arvadı da ona qoşuldu.

Qara inək balasını yalayır, nəfəsindən isti buğ qalxırdı. Bala qıçlarını altına yığıb quru samanın üstündə oturmuş, başını əsdirərək anasına baxırdı.

-- Neçə vaxtdır, qulluğundayıq. Düz o başdan tövlədəyəm. Axır ki, doğdu.

-- Bərəkətli olsun!

-- Allah zəhmətimizi itirməsin. "Doğub başa çıxmadı" , -- deyirdin, -- bax, bu da bala! Qaraqızın qız doğub sənə. Daha nə istəyirsən?! -- Zəki əlini ehmalla heyvana çəkirdi.

Kişi sonra üzünü oğluna tutdu:

-- Fərrux, ılıq su gətir. Qaraqız üçün. Qoy içsin. Gərək yem düzəldəm. Hələlik buraları yığışdırım, ondan sonra. Yaxşı, di get. Heyvanın ətənəsini, qan bulaşan samanı bayıra daşımaq lazımdır. O beli mənə ver.

Fərrux küncə qoyulmuş beli, yabanı atasına verib su dalınca getdi. Gülzar sığal çəkə-çəkə Qaraqızı oxşamağa başladı:

Qaraqızım, gül qızım,
Çiçək qızım, gül qızım.
Sən bir bala doğubsan,
Sevin qızım, gül, qızım.

Bol süd əmib doyunca,
Balan olsun boyunca.
Çıxın birgə örüşə,
Yer bitirib göy yonca....(ardı var)

**Baş redaktor**
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet “Gündoğar”ın redaksiyasında yığılıb, səhifələnib, “AZƏRmedia” mətbəəsində çap olunmuşdur. Tiraj:250